# Pasiyentin Məlumat Kitabçası

## Valproat – Kontrasepsiya və hamiləlik: Nəyi bilmək lazımdır?

## Pasiyentin Məlumat Kitabçası

Valproat tərkibli hər hansı dərman qəbul edən qız və ya qadınsınızsa, bu buklet sizin (və ya himayədarınız/qanuni nümayəndəniz) üçün nəzərdə tutulmuşdur.

Bu kitabça, valproatla müalicə zamanı dərmanın hamiləliyə əlavə təsirlərini minimuma endirmək məqsədi daşıyan valproatdan istifadə zamanı Hamiləlikdən Qorunma Proqramının riskin minimuma endirilməsi tədbirlərinin bir hissəsidir.

Kitabçada hamiləlik müddətində valproatdan istifadənin riskləri haqqında mühüm məlumatlar verilmişdir.

**Bu buklet valproat tərkibli hər hansı dərmandan istifadə edən qız uşaqları və reproduktiv potensialı olan qadınlar (yaxud onların baxıcıları/qanuni nümayəndələri üçün nəzərdə tutulmuşdur.**

- Kitabçada hamiləlik dövründə valproatdan istifadə edilməsinin yarada biləcəyi risklər barədə mühüm məlumatlar verilmişdir.
- Həkiminiz sizə ən yaxşı müalicə vasitəsi kimi valproatdan istifadə etməyi tövsiyə edibsə, bu kitabçanı oxumağınız vacibdir.
- Hamiləlik dövründə valproatdan istifadə edilməsinin yarada biləcəyi risklər valproatdan istifadə edən bütün qadınlar və qız uşaqları üçün eynidir.

**Bu bukleti dərman qutusundakı istifadə təlimatı ilə birlikdə oxuyun.**

- Valproatdan qısa müddət ərzində istifadə etsəniz belə, bu kitabçanı oxumağınız vacibdir.
- Çünki bu kitabçada istifadə etdiyiniz dərman haqqında ən son məlumatlar verilmişdir.

**Bu kitabça haqqında həyat yoldaşınızla, dostlarınızla və ailənizlə danışmaq sizin üçün faydalı ola bilər.**

- Hər hansı sualınız yaranarsa, həkiminizə, baxıcınız qismində işləyən tibb işçisinə, yaxud əczaçıya müraciət edin.

**MÜNDƏRİCAT**

**Bu kitabçanı atmayın. Gələcəkdə onu yenidən oxumaq istəyə bilərsiniz.**


1. Yadda saxlanmalı olan vacib məlumatlar
2. Reproduktiv potensialı olan qadınlar üçün hamiləlikdən qorunma
3. Hamiləlik dövründə valproatdan istifadə edilməsinin riskləri nələrdir?
4. Anadangəlmə qüsurlar
5. İnkişaf və öyrənmə problemləri
6. Bunlar mənim üçün hansı mənanı kəsb edir?
    - Valproat qəbul edərək müalicəyə başlayıram
    - Valproat qəbul edirəm və ailə qurmağı planlaşdırmıram
    - Valproat qəbul edirəm və ailə qurmağı planlaşdırıram
    - Valproat qəbul edirəm və hamilə qalmışam